# Güclü iqtisadiyyat Azərbaycanın hərtərəfli inkişafının təməlində dayanan əsas amildir

## *Prezident İlham Əliyev: İqtisadi müstəqillik mənim siyasətimin ana xəttini təşkil edir*

*Son 16 ildə müstəqil Azərbaycanın həyatı müxtəlif istiqamətləri əhatə edən dərinməzmunlu islahatlarla səciyyələnib. Azərbaycan Prezidentinin qətiyyətlə həyata keçirdiyi islahatlar dayanıqlı iqtisadi inkişafın, ölkədə şəffaflığın, əlverişli biznes mühitinin təmin edilməsi, inkişafı əngəlləyən neqativ halların aradan qaldırılması məqsədini daşıyır. Ciddi konseptual yanaşmalar, dəyişən dünya trendləri və Azərbaycanın potensialı, cəmiyyətin sosial sifarişi nəzərə alınmaqla hazırlanan islahatların uğurla reallaşdırılması sayəsində ölkəmizin həyatı dəyişib, yeni müsbət reallıqlar yaranıb. Əsas məqamlardan biri ondan ibarətdir ki, aparılan islahatlar milli iqtisadiyyatımızı əhəmiyyətli dərəcədə gücləndirib və onun qarşısında daha geniş inkişaf perspektivləri açıb. Yeri gəlmişkən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Mikayıl Cabbarovu yeni vəzifəyə - İqtisadiyyat naziri təyin olunması ilə əlaqədar qəbul edərkən indiyədək ölkəmizin iqtisadi müstəqilliyinin təmin olunması istiqamətində məqsədyönlü işlər görüldüyünü vurğulayıb, eyni zamanda, qarşıya yeni vəzifələr qoyub.* ***"İqtisadi müstəqillik mənim siyasətimin ana xəttini təşkil edir. Bu, bizə güc verir, inam verir, xalqımız təhlükəsizlik şəraitində yaşayır və biz ölkə üçün vacib olan bütün layihələri icra edirik",*** *- deyə dövlətimizin başçısı bildirib.*



### İQTİSADİ MÜSTƏQİLLİK ÖLKƏMİZİN SİYASİ MÜSTƏQİLLİYİNİN, O CÜMLƏDƏN DƏ XARİCİ SİYASƏTDƏ TUTDUĞU PRİNSİPİAL MÖVQEYİN ƏSAS BAZA PRİNSİPİDİR

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev deyirdi ki, iqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir. Bu, tam həqiqətdir və bunu ölkəmizin timsalında da açıq-aydın görmək mümkündür. Hazırda respublikamızın həyatı bütün istiqamətlərdə müsbət reallıqlarla səciyyələnir. Belə ki, ölkə boyu tarazlı inkişaf təmin edilir, hər yerdə genişmiqyaslı quruculuq-abadlıq işləri həyata keçirilir. Uğurla reallaşdırılan böyük investisiya tutumlu layihələr hesabına bu gün Azərbaycan güclü infrastruktur təminatına malik ölkəyə çevrilib. Yeni çəkilən rahat yollar, qazlaşdırmanın ən ucqar dağ kəndlərini belə əhatə etməsi, generasiya güclərinin artırılması, içməli və suvarma suyu ilə təminatın yüksək səviyyəyə qaldırılması, müasir standartlar səviyyəsində tikilən sosial təyinatlı obyektlərin əhalinin istifadəsinə verilməsi, həmçinin insanların gəlir imkanlarının artırılması ölkədə vətəndaş məmnunluğunu təmin edir. Qısa müstəqillik tarixində Azərbaycan Cənubi Qafqazın lider dövləti səviyyəsinə yüksəlib. Regionda reallaşdırılan bütün irimiqyaslı enerji və nəqliyyat layihələrinin moderatoru rolunda məhz respublikamız çıxış edir.

> *"İqtisadi müstəqillik bizim üçün əsas vəzifə olaraq qalır. Buna nail olmaq üçün biz gələcək illərdə çox böyük səylər göstərməliyik"*

Azərbaycanın timsalında diqqəti çəkən əsas məqam isə ondan ibarətdir ki, ölkəmiz özünün inamlı inkişafını sırf daxili imkanlar hesabına təmin edir. Bu gün güclü iqtisadiyyat Azərbaycanın hərtərəfli inkişafının, milli maraqlar üzərində qurulan prinsipial siyasətinin təməlində dayanan əsas amil qismində çıxış edir. Bu məqama diqqət çəkən Prezident İlham Əliyev vurğulayıb: **"Əgər bizim iqtisadiyyatımız kənar dairələrdən asılı olsaydı, biz uğurlu siyasi kurs icra edə bilməzdik. Bizim siyasi müstəqilliyimizin, o cümlədən xarici siyasətdə apardığımız prinsipial mövqeyin əsas baza prinsipi iqtisadi müstəqilliyimizdir. Mən Prezident kimi ilk illərdən iqtisadi müstəqilliyə nail olmaq üçün çalışmışam, müvafiq göstərişlər vermişəm. Bu gün Azərbaycan iqtisadi baxımdan, o cümlədən siyasi baxımdan heç kimdən, heç bir ölkədən asılı deyil, prinsipial müstəqil siyasət aparır, o siyasət ki, Azərbaycan xalqının maraqlarını təmin edir. Azərbaycan xalqının maraqlarını, dövlət maraqlarını bütün beynəlxalq tribunalardan müdafiə etmək üçün, əlbəttə ki, bizim iqtisadi imkanımız olmalıdır".**

Son 16 ildə Azərbaycanın dövlət siyasətində bir qayda olaraq iqtisadi inkişafla bağlı məsələlərin prioritetliyi təmin edilib. Bunun da nəticəsi olaraq respublikamızda yüksək rəqabət qabiliyyətinə malik iqtisadiyyat formalaşıb. Bu gün Azərbaycan iqtisadi inkişaf baxımından heç kimdən, heç bir beynəlxalq maliyyə qurumundan, heç bir ölkədən asılı deyil. Son 16 ilin göstəriciləri ölkəmizin Prezident İlham Əliyev tərəfindən innovativ əsaslı güclü iqtisadiyyat quruculuğu ilə bağlı qarşıya qoyulan strateji hədəfə doğru inamla irəlilədiyini bir daha təsdiqləyir. Məqsədyönlü yanaşmanın nəticəsidir ki, respublikamızda bazar iqtisadiyyatına transformasiya prosesi uğurla başa çatıb. 2004-cü ildən bəri bütün dünya üzrə ÜDM istehsalının artımında ən yaxşı göstəricilərdən biri 3 dəfədən çox olmaqla məhz Azərbaycanda qeydə alınıb. Qürurverici haldır ki, rəqabətqabiliyyətliliyinə görə Azərbaycan iqtisadiyyatı MDB məkanında birinci yerə yüksəlib.

> *"Əgər bizim iqtisadiyyatımız kənar dairələrdən asılı olsaydı, biz uğurlu siyasi kurs icra edə bilməzdik"*

İqtisadiyyatın genişlənməsi ilə paralel şəkildə, ölkəmizin maliyyə təminatı da artır. Son 16 ildə respublikamıza daxili və xarici mənbələrdən 260 milyard dollardan çox investisiya yönəldilib. Eyni zamanda, respublikamızın valyuta ehtiyatları da artır. Azərbaycan öz vəsaitlərinə böyük qənaətlə yanaşır. Bir tərəfdən uğurlu iqtisadi inkişaf sayəsində qazanılan vəsaitlər qarşıda duran məsələlərin həllinə, quruculuq-abadlıq işlərinə və bu kimi digər məqsədlərə yönəldilir, həmçinin digər tərəfdən ölkənin sabahı üçün güclü maliyyə təminatları yaradılır. Artıq respublikamızın strateji valyuta ehtiyatları 49 milyard dollara çatıb. Halbuki, 2004-cü ildə bu rəqəm cəmi 1,8 milyard dollar civarında idi.

Şübhə yoxdur ki, indiki mərhələdə müəyyənləşdirilən yeni paradiqmalar perspektivdə milli iqtisadiyyatımızı daha güclü edəcək, onun rəqabət qabiliyyətini daha da artıracaq. Respublikamızda iqtisadi inkişafın yeni paradiqmaları sırasında qeyri-neft sektorunun davamlı inkişafının təmin olunması qarşıya strateji vəzifə kimi qoyulub. O cümlədən qeyri-neft sektorunun inkişafı məqsədilə reallaşdırılan tədbirlər Azərbaycanın iqtisadi gücünü daha da artırır. Bütövlükdə ötən 16 ildə respublikamızda qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artıb, qeyri-neft ixracı 4,1 dəfə çoxalıb. Təsadüfi deyil ki, 2019-cu ilin ötən 9 ayında milli iqtisadiyyatımızda ən yaxşı inkişaf göstəriciləri 15 faizdən çox olmaqla qeyri-neft sənayesində və 7 faiz olmaqla kənd təsərrüfatında qeydə alınıb.

### VERGİLƏR NAZİRLİYİNİN ƏLAVƏ 350 MİLYON MANATDAN ÇOX VƏSAİT TOPLAMASI ŞƏFFAFLIĞIN TƏZAHÜRÜDÜR

Ölkənin iqtisadi müstəqilliyinin təmin edilməsinə müsbət təsir göstərən amillər sırasında aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyətinin səmərəli qurulması da mühüm rol oynayır. Deyilənlər baxımından vergi sistemində məqsədyönlü şəkildə görülən işlər xüsusilə təqdirəlayiqdir. Son vaxtlarda Azərbaycanda vergi siyasəti daim iqtisadiyyatın dəyişən tələblərinə, onun artan gücünə adekvat olaraq təkmilləşdirilir. Vergi sisteminin məhz yeni çağırışlara uyğun qurulması, həyata keçirilən vergi siyasətinin və vergi inzibatçılığının tətbiqi zamanı vergi ödəyiciləri ilə dövlət arasında yeni münasibətlərin formalaşdırılması hazırda vergi orqanlarının qarşısında duran əsas vəzifələrdəndir. Bundan əvvəl bir müddət Azərbaycan Respublikasının Vergilər Nazirliyinə rəhbərlik etmiş Mikayıl Cabbarov KİV-ə müsahibəsində bildirib ki, cari ildə respublikamızda qabaqcıl dünya praktikası ilə uzlaşdırılan yeni bir vergi sisteminə keçid istiqamətində müvafiq addımlar atılıb. Bu prosesin ölkədəki iqtisadi artıma, oturuşmuş biznes vərdişlərinə və işgüzar mühitə xələl gətirmədən həyata keçirilməsi üçün müvafiq tədbirlər həm inzibatçılıq mədəniyyəti, həm də qanunvericilikdə müvafiq dəyişikliklər vasitəsilə tətbiq olunub. Son vaxtlarda vergi orqanları tərəfindən aparılan səyyar vergi yoxlamalarının sayı təxminən üç dəfə azaldılıb. Vergi orqanlarının praktikası və yanaşması imkan verir ki, bir çox vergidən yayınma halları texnoloji informasiya bazasının təkmilləşdirilməsi və zənginləşdirilməsi nəticəsində əldə edilmiş məlumatların təhlili vasitəsilə, yoxlamaya getmədən, subyektivlik amilini aradan qaldırmaq və insan amilinin rolunu minimuma endirməklə aşkara çıxarılsın. Vergi sistemində aparılan struktur islahatları barədə danışan Mikayıl Cabbarov bu islahatların fəlsəfəsinin vergi orqanlarının əsas funksiyasının fiskal nəzarətdən vergi ödəyicilərinə xidmət prinsipinə keçirilməsi olduğunu bildirib.

Vergi sistemində rəqəmsallaşma və elektron xidmətlərin tətbiqinin genişləndirilməsi prioritet istiqamət təşkil edir. Növbəti illərdə elektron xidmətlərin sayının genişləndirilməsi, bu xidmətlərin mobil cihazlar vasitəsilə əldə edilməsi imkanlarının yaradılması, vebportalın funksionallığının genişləndirilməsi nəzərdə tutulur. Hazırda qeyd olunan istiqamətlərdə zəruri işlər həyata keçirilir.

Vergi ödəyiciləri islahatlar çərçivəsində vergi sistemində apelyasiya sisteminin formalaşdırılmasından razılıq edirlər. Əlbəttə, heç bir fəaliyyət qüsursuz deyil və vergi orqanının qərarları ilə razılaşmayanların olması hər zaman mümkündür. Buna görə də vergi sistemində apelyasiya sisteminin fəaliyyətinə çox böyük önəm verilir. Burada sahibkarın və vergi ödəyicisinin şikayətinə baxılarkən məsələyə "yalnız vergi toplamaq" prizmasından deyil, "qanun düzgün tətbiq edilməlidir" fəlsəfəsi ilə yanaşılır. Həyata keçirilən bütün bu kimi tədbirlər, vergi orqanlarında əvvəllər müşahidə edilən neqativ halların aradan qaldırılması, şəffaflığın yüksək səviyyədə təmin olunması öz növbəsində vergilərin vaxtında və tam həcmdə ödənilməsinə müsbət təsir göstərib. Prezident İlham Əliyev 2019-cu ildə Vergilər Nazirliyinin xətti ilə plandan əlavə 350 milyon manat həcmində vəsait toplanmasını bilavasitə şəffaflığın təzahürü kimi səciyyələndirib: **"Azərbaycanda sahibkarlığın inkişafı üçün vergilər stimulverici rol oynayır və nəticələr də göz qabağındadır. Bu il Vergilər Nazirliyi plandan əlavə təqribən 350 milyon manatdan çox vəsait toplayıb və əlbəttə ki, bu, şəffaflığın təzahürüdür. Təbii ki, bu vəsait bizə bu il çox geniş və ciddi sosial paket icra etmək imkanı verdi. Deyə bilərəm ki, bu sosial təşəbbüsün analoqu bu günə qədər olmamışdır. Dörd milyon iki yüz min insan bu sosial təşəbbüsdən faydalanıb, minimum əməkhaqqı təxminən iki dəfə, minimum pensiya 70 faizdən çox artırılıb. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə biz MDB məkanında birinci yerdəyik, amma orta pensiyanın səviyyəsinə görə üçüncü yerdəyik. Yəni, bu, doğrudan da çox böyük sosial təşəbbüsdür. Əlbəttə, əgər bizim maliyyə imkanlarımız olmasaydı, biz bunu edə bilməzdik".**

> *"Yeni, savadlı, bilikli, müasir kadrlar, ilk növbədə, Vətənə bağlı olmalıdırlar, hər hansı bir xarici təsirdən azad olmalıdırlar və vətənpərvər olmalıdırlar ki, Vətənin inkişafı üçün öz səylərini göstərə bilsinlər"*

### ÖLKƏDƏ PARALEL ŞƏKİLDƏ KADR VƏ STRUKTUR İSLAHATLARI APARILIR

Yuxarıda deyilənlərdən də bəlli olduğu kimi, Azərbaycan iqtisadi potensialı kifayət qədər böyük olan ölkədir. Ancaq yalnız iqtisadi potensiala arxayın olmaqla respublikanın perspektiv inkişafını təmin etmək mümkün deyil. İnkişafın ardıcıllığının təmin olunması böyük dərəcədə idarəetmə mexanizminin optimal qurulmasından, kadrların düzgün seçilib yerləşdirilməsindən asılıdır. Respublikamızda cari ilin əvvəlindən daha aktiv fazaya daxil olan institusional islahatlar da məhz idarəetmədə səmərəliliyi və çevikliyi artırmağa hesablanıb. Qeyd etmək yerinə düşər ki, 2019-cu ilin əvvəlindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən struktur islahatları ilə bağlı mühüm qərarlar qəbul edilib və bu istiqamətdə işlər daha aktiv fazaya daxil olub. 23 oktyabr 2019-cu il tarixində isə Prezident İlham Əliyev "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" Fərman imzalayıb. Fərmana əsasən, iqtisadi artım üçün əlverişli şəraitin yaradılmasına cavabdeh olan dövlət orqanlarının koordinasiyalı fəaliyyətinin təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi müvafiq dövlət xidmətləri statusunda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturuna daxil edilib. Sənəddə də qeyd olunduğu kimi, ölkənin davamlı inkişafının təmin edilməsi məqsədi ilə aparılan sosial-iqtisadi islahatların dərinləşdirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunda daha yüksək əlavə dəyərin yaradılması və ixrac potensialının artırılması vəzifələri müvafiq sahələrdə struktur dəyişikliklərinin sürətləndirilməsini və dövlət idarəetmə strukturunun təkmilləşdirilməsini zəruri edir.

Bütövlükdə, ardıcıllıqla aparılan struktur islahatları dövlət idarəetməsini iqtisadi inkişafın yeni mərhələsinə uyğunlaşdırır. İdarəetmə və iqtisadi inkişaf arasında tarazlıq, qarşılıqlı əlaqə və bir-birini tamamlama kimi prinsiplər qorunur. Yeri gəlmişkən, respublikamızda Prezident İlham Əliyevin siyasi iradəsi ilə aparılan struktur islahatları beynəlxalq səviyyədə də yüksək dəyərləndirilir. Xəbər verildiyi kimi, bu günlərdə Dünya Bankı Avropa və Mərkəzi Asiya regionunda yerləşən ölkələrin iqtisadiyyatlarının cari vəziyyəti, maliyyə, biznes və investisiya sferalarında müşahidə olunan trendlərin ətraflı analiz olunduğu növbəti hesabatını açıqlayıb. Azərbaycan iqtisadiyyatının analoji istiqamətlərinin dəyərləndirildiyi hesabatda xarici neqativ təsirlərə qarşı ölkə iqtisadiyyatının dayanıqlılığının gücləndirilməsi məqsədilə həyata keçirilən struktur islahatları yüksək qiymətləndirilib.

> *"Azərbaycanda sahibkarlığın inkişafı üçün vergilər stimulverici rol oynayır və nəticələr də göz qabağındadır"*

Ölkəmizdə yeni mərhələdə institusional islahatlarla paralel olaraq kadr siyasəti də keyfiyyətcə yeni mərhələyə qaldırılır. Belə ki, idarəetməyə daha gənc kadrlar cəlb olunur. Bu da təbiidir. Ölkə Prezidenti dövlət orqanlarında, icra strukturlarında çevikliyi artırmaq, islahatları dərinləşdirmək istəyir. Kadrlar da məhz qarşıya qoyulan tələblərə uyğun işləməlidirlər, islahatların dərinləşməsinə öz töhfələrini verməlidirlər. Prezident İlham Əliyev ölkədə kadr siyasətini dəyişməklə əslində idarəetməyə yeni nəfəs, daha güclü enerji gətirmək istəyir. İndiki mərhələdə yüksək səviyyəli kadrlara tələblərin kifayət qədər yüksək olduğunu nəzərə çatdıran dövlət başçısı **"İslahatlara alternativ yoxdur. Mən yeni iqtisadi model haqqında öz andiçmə mərasimimdə fikirlərimi ifadə etmişəm. Əsas konturlar o vaxt müəyyən olunub. Ondan sonra aparılan islahatlar, o cümlədən kadr islahatları bu məqsədi güdür. Kadr islahatları labüddür, bu, qaçılmazdır. Çünki mən bunu demişəm, biz XXI əsrdə köhnə təfəkkürlə uğurlara imza ata bilmərik. Əlbəttə, yeni, savadlı, bilikli, müasir kadrlar, ilk növbədə, Vətənə bağlı olmalıdırlar, hər hansı bir xarici təsirdən azad olmalıdırlar və vətənpərvər olmalıdırlar ki, Vətənin inkişafı üçün öz səylərini göstərə bilsinlər",** - deyə vurğulayıb.

Göründüyü kimi, Prezident İlham Əliyevin kadrlara verdiyi tələblər kifayət qədər ciddidir. Məhz belə yüksək hazırlığa, geniş dünyagörüşünə və zəngin mənəvi keyfiyyətlərə malik kadrlarla ölkəmizin bundan sonra da dayanıqlı inkişafını təmin etmək mümkündür.

### HEÇ BİR HƏDƏ-QORXU, HEÇ BİR TƏHDİD AZƏRBAYCANIN APARDIĞI SİYASƏTƏ TƏSİR EDƏ BİLMƏZ

Hazırda dünyada gedən proseslər hər kəsə bəllidir. Qlobal miqyasdakı geosiyasi gərginliklər fonunda yalnız güclü dayaqlara malik dövlətlər ayaqda möhkəm dayanır və öz ölkələrinin, xalqlarının milli maraqlarına uyğun siyasət həyata keçirirlər. Biz iqtisadi tənəzzülün, maliyyə çatışmazlığının acı fəsadlarını forpost dövlətə çevrilən Ermənistanın timsalında açıq şəkildə görürük. Bütünlüklə dalana dirənən, ianələr hesabına yaşayan Ermənistanın heç bir iqtisadi perspektivi yoxdur, insanlar yoxsulluq və səfalət üzündən bu ölkəni tərk edirlər. Güclü iqtisadi potensiala malik olan ölkəmiz isə sırf milli maraqlara əsaslanan siyasət həyata keçirir. Öz hesabına yaşayan respublikamız dünyada ləyaqətli ölkə kimi tanınır. Əlbəttə, dünyada Azərbaycanı istəməyən dairələr, antimilli mərkəzlər də var. Biz zaman-zaman həmin mərkəzlərdən respublikamıza hücum və təzyiq cəhdlərinin şahidi olmuşuq. Ancaq onlar hər dəfə qarşılarında güclü, monolit Azərbaycan görüblər və geri çəkilmək məcburiyyətində qalıblar. Bu kimi məqamlardan bəhs edən Prezident İlham Əliyev deyib: **"Biz indi dünyada gedən proseslərə diqqətlə baxırıq və görürük ki, hansı ölkələr iqtisadi cəhətdən başqa ölkələrdən, yaxud da beynəlxalq maliyyə qurumlarından asılıdırsa, o ölkələr müstəqil siyasət apara bilməz, o ölkələr bir növ böyük ölkələrin girovuna, alətinə çevrilir. O ölkələrin hökumətlərini bəzi hallarda öz xalqına, öz milli maraqlarına görə istifadə etmək üçün onlara təzyiq edilir və onlar bu təzyiqə davam gətirə bilmir. Bizə də təzyiq göstərilir və mənim Prezident kimi fəaliyyətimin bütün dövrlərində göstərilən təzyiqlə üzləşmişik. Ancaq buna davam gətirə bilmişik, müqavimət göstərmişik, öz sözümüzü demişik və heç bir təzyiq, heç bir hədə-qorxu, heç bir təhdid bizim siyasətimizə təsir edə bilməz. Nə üçün? İlk növbədə, biz xalqın dəstəyinə arxalanırıq. Son müddət ərzində keçirilən rəy sorğuları göstərir ki, bizim hökumətimizə ictimai dəstək nə qədər yüksəkdir. O cümlədən Davos Ümumdünya İqtisadi Forumunun son hesabatında, - mən bunu səsləndirdim, - hakimiyyətə olan inam baxımından biz dünya miqyasında ön sıralardayıq. Ona görə iqtisadi müstəqillik bizim üçün əsas vəzifə olaraq qalır. Buna nail olmaq üçün biz gələcək illərdə çox böyük səylər göstərməliyik".**

Yuxarıda deyilənlərdən hasil olan nəticə ondan ibarətdir ki, iqtisadi müstəqilliyin təmin edilməsi Azərbaycanın tarixi nailiyyətidir. Bu gün heç bir xarici dövlət, heç bir beynəlxalq təşkilat ölkəmizlə diktat dili ilə danışmır və danışa da bilməz.

**Mübariz ABDULLAYEV**